**LAYİHƏ TƏKLİFİ FORMASI**

**Layihə təklifi:** MDU Pedaqogika və psixologiya kafedrası nəzdnində fəliyyət göstərməsi nəzərdə tutulur.

## 1.LAYİHƏNİN ADI

Mingəçevir Dövlət Üniversiteti nəzdnnində "İnklüziv təhsil mərkəzi" adlı elmi-praktik yönümlü mərkəz

## 2. LAYİHƏNİN İDEYASI

Milli qanunvericilikdə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanının yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı əsas məqsəd kimi qəbul edir. MDU Pedaqogika və psixologiya kafedrası olaraq biz də bu meyarları əsas götürərək kafedrasının nəzdnində " İnklüziv təhsil mərkəzi "ni yaratmağı vacib amil hesab edirik. Kafedranın nəzdnində fəaliyyət göstərən "İbtidai sinif müəllimliyi", "Məktəbəqədər təhsil", "Sosial iş", "Təhsildə sosial-psixoloji xidmət" habelə "Texnologiya müəllimliyi" ixtisasları üçün İnkyüziv təhsilin incəliklərinə yiyələnmək, eyni zamanda Universitetitdə sağlamlıq imkanları məhdud olan tələbələrlə işin təşkili məqsədi ilə " İnklüziv təhsil mərkəzi "nin faəaliyyətinə böyük ehtiyac var.

## 3. Layihənin təsviri

İnklüziv təhsil günümüzün aktual problemlərindədir. Azərbaycanda Rəsmi statistikaya görə Azərbaycanda əlilliyi olan təxminən 72 000 uşaq qeydiyyatda olsa da, onların cəmi dörddə bir hissəsi bu və ya digər formada təhsil ala bilir. Onların təhsilə cəlb edilməsi və xüsusi qayğı ilə əhatə edilməsi təhsilin qarşısında duran başlığa vəzifələrdəndir. Kafedranın mövcud ixtisaslarını nəzərə alaraq tələbələr üçün mərkəzin kuratorluğu vasitəsi ilə İnklyuziv təhsil istiqamətində təlimlərin təşkili, eyni zamanda Universitetdə İnkluziv təhsilin təşkilndə iştirak vacib amillərdəndir. Belə ki, onlar dövlətin himayəsində olsalar da mənəvi, psixoloji, fiziki dəstəyə hər zaman ehtiyacı var. Hazırda Azərbaycanda fəaliyyət göstərən bir çox inklyüziya yönümlü mərkəzlərlə əmakdaşlıq etməklə Kafedra nəznində fəaliyyət göstərəcək "İnklyuziya mərkəzi"nin uşaq və gənclərimizə faydalı olmasına çalışmaq əsas hədəfimizdir.

## 4. LAYİHƏNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

a) Bakalavriat səviyyısində "İbtidai sinif müəllimliyi", "Məktəbəqədər təhsil", "Təhsildə sosial-psixoloji xidmət", "Sosial iş", "Texnologiya müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələrin inklüziv təhsil istiqamətində peşəkar mütəxəssisə çevrilməsinə çalışmaq;

B) Səriştəyönümlü praktik işin icrasi ilə yanaşı, təlimçilərdən gərəkən biliklərə yiyələnmək;

c) Digər universitetlərə nümunə olacaq (onların da istifadə edə biləcəyi) elmi- praktik mərkəzi formalaşdırmaq.

D) Sağlamlıq imkanı məhdud olan uşaq və yeniyetmələrin mövcud olduğu müəssilərə baş çəkmək, onlara dəstək olmaq

E) Sağlamlıq imkanı məhdud olan uşaq və yeniyetmələr üçün xeyriyyə tədbirləri təşkil etmək

### 4.2. Qarşıya qoyulan vəzifələri:

a) İnklyuziv təhsilin incəliklərinə yiyələnmiş mütəxəssislər hazırlamaq.

b) Mərkəzlə aktiv fəaliyyətdə olan tələbələrə sertifikat vermək.

## 5. LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ GÖRÜLƏCƏK İŞLƏR

-Mərkəzi formalaşdırmaq üçün mütəxəssislər tərəfindən komissiya yaradılması;

-Elmi-tədqiqat mərkəzinə başçılıq edəcək elmi rəhbərin təyin edilməsi;

-Görüləcək işin istiqamətini müəyyənləşdirmək üçün təlim proqramın yaradılması;

-İnklyuziv təhsil istiqamətində təlimlərin keçirilməsi;

-Sertifikatlaşdırma

-Maarifləndirici təbliğat kitabçalarının yaradılması

-Xeyriyyə tədbirlərinin təşkili

## 6. LAYİHƏNİN İCRASINDAN GÖZLƏNİLƏN NƏTİCƏLƏR VƏ DAVAMLILIQ

-1. Layihənin icrasından əldə ediləcək nəticələr:

-Tələbələrin mütəxəssis kimi formalaşması

-Təlimçilərin sertifikasiyası

-Təlimatların hazırlanması

-Təcrübə nəticəsində əldə olunan səriştələrin ölkə üzrə təhsil sisteminə inteqrasiyası imkanları:

Layihənin rəhbəri: prof. F.C.Cəlil